# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 146** **Bakı şəhəri, 7 aprel 2022-ci il**

***“Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 may tarixli 77 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 may tarixli 77 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 385; 2014, № 6, maddə 732; 2016, № 3, maddə 579; 2019, № 4, maddə 755; 2020, № 5, maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

“1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezi-dentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.”.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi” üzrə:

2.1. 2.4-cü bəndə “qanunvericiliklə müəyyən edilmiş qaydada” sözlərindən sonra “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin razılığı ilə” sözləri əlavə edilsin;

2.2. 5.2-ci bənddən “müstəsna” sözü çıxarılsın;

2.3. 6.3-cü bənddə “Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən Cəmiyyətin sədri və Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən” sözləri “ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən Cəmiyyətin sədri və” sözləri ilə əvəz edilsin;

2.4. 7.1.5-ci yarımbənddə və 10.4-cü bənddə “müəyyən edilmiş qaydada” sözləri “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə” sözləri ilə əvəz edilsin;

2.5. 7.1.10-cu yarımbənddə “müəyyən edilmiş qaydada” sözləri “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə” sözləri ilə əvəz edilsin;

2.6. 12-ci hissədə “qanunvericiliklə müəyyən edilmiş qaydada” sözləri “Azərbaycan Respublikasının Prezidenti tərəfindən” sözləri ilə əvəz edilsin;

2.7. “Qeyd” hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti 2022.- 10 aprel.- S.6.